

> **“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.**

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 mart 2023-cü il №17 (2729) https://mod.gov.az Qiymәti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır

*Martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü işə başlayıb.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən Əlcəzair Xalq Demokratik Respublikasının Baş naziri Ayman Benabderrahmanı, Keniyanın Baş naziri Uakylif Musalia Mudavadini, Tanzaniyanın Vitse-prezidenti Filip İsdor Mpanqonu, Kuba Respublikasının Vitse-prezidenti Salvador Antonio Valdes Mesanı, Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvü, Ras əl-Xeymə Əmirliyinin hakimi Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasimini, Qabonun Vitse-prezidenti xanım Rouz Kristian Ossuka Rapondanı, BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösini, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçi, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi, Liviyanın Prezident Şurasının sədri Məhəmməd Yunis Əl-Mənfini, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyev** tədbiri açaraq deyib:

- Zati-aliləri, hörmətli nümayəndələr, xanımlar və cənablar.

Sizin hamınızı Bakıda, Azərbaycanda, Qoşulmama




Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun sammit səviyyəli görüşündə ürəkdən salamlayıram. Üç ildən bir qədər çox əvvəl elə həmin bu zalda Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi qəbul etdi. Qürurla deyə bilərəm ki, bu Hərəkat son bir neçə ildə beynəlxalq münasibətlərdə mühüm aktorlardan biri olub. Müzakirələrimizə başlamazdan əvvəl sizin diqqətinizi bir məqama cəlb etmək istəyirəm. Hamınız bildiyi kimi, bir neçə həftə bundan əvvəl Türkiyədə və Suriyada dağıdıcı zəlzələ baş verib. Müasir dövrün ən faciəli təbii fəlakətlərindən biri olan bu zəlzələ on minlərlə insanın həyatına son qoyub. Zirvə görüşünün bütün iştirakçılarını ayağa qalxmağa və həlak olanların xatirəsini bir dəqiqəlik sükutla anmağa dəvət edirəm. Allah rəhmət eləsin! Sağ olun!

Bu dəhşətli fəlakətlə əlaqədar dərindən kədərləndiyimizi bildirir, həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzu edirik.

Bu dəhşətli fəlakətlə əlaqədar ... İndi isə müzakirələrə başlaya bilərik. İclası açmazdan əvvəl onun gündəliyi təsdiq edilməlidir. Sammit səviyyəli görüşün ilkin gündəliyi nümayəndə heyətləri arasında yayılıb. Belə hesab edə bilərəmmi ki, gündəlik barədə etirazlar yoxdur? Sağ olun! Beləliklə, sammit səviyyəli görüşün gündəliyini təsdiq olunmuş hesab edirəm. İndi isə mən Qoşulmama Hərəkatının sədri kimi çıxış edəcəyəm.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun pandemiyadan sonrakı bərpaya həsr olunmuş sammit səviyyəli görüşündə salamlayıram.

2019-cu ildə Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatına sədrliyinə başladı. Sədrliyimizin müddəti yekdil qərarla daha bir il uzadıldı. Biz Azərbaycanın sədrliyinə göstərdikləri dəstəyə görə üzv dövlətlərə minnətdarıq.

Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu.

Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdük. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin ehtiyaclarını müəyyən etmək üçün bu məlumat bazasına istinad edib.

Mən həmin Zirvə toplantısında BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etmişdim. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı.

Xüsusi sessiya 2020-ci ilin dekabr ayında keçirilib və tədbirdə 70-dən çox dövlət və hökumət başçısı çıxış edib. Xüsusi sessiyada beynəlxalq həmrəyliyin artırılmasının zəruriliyi vurğulanıb, Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyi qəbul edilib.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2005-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1988-2004-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2023-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2023-cü il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 mart 2023-cü il

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır



(Əvvəli 1-ci səhifədə)

Biz bəzi varlı ölkələrin həyata keçirdiyi "peyvənd millətçiliyi"ni xüsusilə pandemiya ilə mübarizədə ciddi manea kimi qiymətləndirdik. Nəticədə Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu.

Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər edilməsində liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini bir daha nümayiş etdirdi.

Azərbaycan əksəriyyəti bizim Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib.

Azərbaycan Hərəkatın institusional inkişafına güclü dəstək verir. Biz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış etdik. Şəbəkənin ilk iclası 2022-ci ilin iyun ayında Bakıda keçirilib.

Bundan başqa, 2022-ci ilin iyulunda Şuşa Razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Təşkilatın daimi katibliyi Bakıda yerləşəcək.

Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır.

2021-ci ildə Belqradda keçirilən Yüksək Səviyyəli yubiley görüşündə mən Hərəkatın COVID-19-dan sonrakı dövrlə bağlı mövqeyini formalaşdırmaq məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin yüksək səviyyəli görüşünün keçirilməsi ideyasını irəli sürdüm. Bunu nəzərə alaraq mən bu Zirvə toplantısını çağırdım və inanıram ki, bu tədbir yeni meydana çıxan qlobal əhəmiyyətli məsələləri müzakirə etmək imkanı yaradacaq.

Son bir neçə onillikdə mövcud olan beynəlxalq təhlükəsizlik arxitekturası hazırda köklü dəyişikliklərlə üzləşir və multilateralizm təhlükə altındadır. Beynəlxalq hüququn norma və prinsiplərinin aşınması beynəlxalq düzəni daha da təhdid edir.

Suverenliyin və ərazi bütövlüyünün pozulması, dövlətlərin daxili işlərinə müdaxilə halları daha çox müşahidə olunmaqdadır. Aparıcı beynəlxalq təşkilatların qərarları ya icra olunmur, ya da selektiv yanaşma və ikili standartlar tətbiq edilir.

Yeni dünya düzəni yenidən formalaşmaqdadır. İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir.

Təəssüf ki, bu gün biz neokolonializm meylinin artdığını müşahidə edirik. Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir.

Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir. Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq.

Dünyada uzun illərdir müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatlardır. BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir. Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun.

Bir daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə növbəli şəkildə bu yerə sahib olmalıdır. Mən Qoşulmama Hərəkatına üzv ölkələri bu məsələ ilə bağlı məsləhətləşmələrə başlamağa və öz fikirlərini BMT-nin müvafiq komitəsinə təqdim etməyə çağırıram. Biz Təhlükəsizlik Şurasında Afrikaya da daimi yerlərin verilməsi fikrini dəstəkləyirik.

Pandemiya "2030: Davamlı İnkişaf Məqsədləri"nin icra olunmasına mənfi təsir edib. Bundan əlavə, hədəflərə çatmaqda geriləmənin qarşısını almaq və 2030-cu il gündəliyinin icrasına vaxtında nail olmaq üçün qlobal səylər gücləndirilməlidir.

Bu məqsədlə biz BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif etmişik. Bu panel postpandemiya dövrü üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər. Mən Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə çağırıram.

Biz suverenliyə, milli sahibliyə, bərabərliyə və qarşılıqlı mənafeyə hörmət prinsiplərini rəhbər tutan Cənub-Cənub əməkdaşlığını daha da gücləndirməliyik. Həmin gündəlik Cənub ölkələrinin özləri tərəfindən öz milli ehtiyac və prioritetlərinə uyğun olaraq təşkil edilib. Bu, kənardan məcburi qaydada qoyulmuş bir gündəlik deyil.

İqlim dəyişikliyi bəşəriyyət üçün digər bir təhdiddir və su qıtlığı, ərzaq çatışmazlığı və məcburi miqrasiya kimi ciddi problemlərə səbəb olur.

İnkişaf edən kiçik ada ölkələri daha çox diqqətəlayiqdir. Çünki onlar iqlim dəyişikliyinin təsirlərinə daha həssas olduqları üçün yer üzündən silinmək təhlükəsi ilə üzləşiblər.

COVID-19 pandemiyası dövründə olduğu kimi, Azərbaycan Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcək. Mən burada iki qlobal çağırışı bəyan edirəm. Bunlar Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləməkdir. Məmnuniyyətlə elan edirəm ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır. İnanıram ki, Qoşulmama Hərəkatının üzvləri və beynəlxalq ictimaiyyətin digər üzvləri Azərbaycanın təşəbbüsünü dəstəkləyəcək və bizə qoşularaq postpandemiya bərpası dövründə ehtiyacı olan ölkələrə dəstək verəcəklər.

Xanımlar və cənablar.

Daha öncə də qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurası bu gün səmərəli deyil. Məsələn, Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə günün içində icra olunub. Lakin Azərbaycana gəldikdə isə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmamışdır.

2020-ci ildə Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi və Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi. Yəqin ki, bu hadisə BMT-nin əsası qoyulandan bəri dünyada ilk dəfə idi baş verirdi.

İşğal illəri ərzində Azərbaycanın yüzlərlə şəhər və kəndi Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılmış, bütün mədəni və dini abidələr talan və qarət edilmişdir. Azərbaycanın işğaldan azad olunmuş əraziləri klassik urbisid, kultursid və ekosid nümunələridir. 2020-ci ilin sonundan etibarən Qoşulmama Hərəkatına üzv ölkələr də daxil olmaqla, bir çox ölkədən minlərlə xarici diplomat, jurnalist, QHT üzvü və siyasətçi işğaldan azad olunmuş əraziləri ziyarət edərək Ermənistan tərəfindən törədilmiş vəhşiliklərin şahidi olmuşdur.

Azərbaycan işğaldan azad olunmuş ərazilərdə öz maliyyə resursları ilə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan hökuməti 2021-2022-ci illərdə yenidənqurma işlərinə 4 milyard ABŞ dolları həcmində pul xərcləyib. Bu il biz bu məqsəd üçün ən azı 1,7 milyard ABŞ dolları məbləğində vəsait ayırmağı planlaşdırırıq. Biz müasir şəhərsalma - "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarından istifadə edərək yeni, şəhər və kəndləri sıfırdan yaradırıq. Bu, milli hökumətlər tərəfindən postmünaqişə dövründə icra olunan nadir və daha öncə görünməmiş bir inkişaf və yenidənqurma modelidir.

Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300 azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Ölkə üçün humanitar minatəmizləmənin böyük əhəmiyyətini nəzərə alaraq, Azərbaycan hazırda xüsusi milli Dayanıqlı İnkişaf Məqsədinin müəyyən edilməsini nəzərdən keçirir. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə görür, çünki minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini ləngidir. Azərbaycan minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Biz Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə dəvət edirik.

Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, mən səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif etmək istəyirəm.

Münaqişənin bitməsindən qısa müddət sonra Azərbaycan sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsip Ermənistana təqdim edib.

Bu fürsətdən istifadə edərək mən Qoşulmama Hərəkatına üzv ölkələrə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə, həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə birtərəfli və qərəzli bəyanatların qəbuluna imkan verməməkdə göstərdikləri qətiyyətə görə təşəkkür etmək istəyirəm.

Sonda isə sizi əmin etmək istəyirəm ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi və Hərəkatın beynəlxalq arenada mövqeyinin güclənməsi üzrə səylərini əsirgəməyəcəkdir.

Təşəkkür edirəm.

* * *

Daha sonra BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösi, BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovaya çıxış ediblər.

Çıxışların ardınca Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesusun videomüraciəti dinlənilib.

Tədbir plenar sessiya ilə davam edib.

* * *

Zirvə görüşünə 70-ə yaxın ölkənin dövlət və hökumət başçıları, 5 ölkənin, o cümlədən Bosniya və Herseqovina, Türkmənistan, Özbəkistan, İraq, Liviyanın prezidentləri, üç ölkənin - Kuba, Qabon, Tanzaniyanın Vitse-prezidentləri, Əlcəzair və Keniyanın Baş nazirləri, müxtəlif ölkələrin yüksək səviyyəli nümayəndələri, həmçinin beynəlxalq təşkilatların rəhbərləri - Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili, Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Baş direktoru Antonio Vitorino, BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovaya, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri və digərləri, eyni zamanda, nazirlər, nazir müavinləri, səfirlər və s. qatılıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi institutda şəhidlərin Xatirə kompleksinin açılışı olub







Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, martın 1-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Heydər Əliyev adına Hərbi İnstitutda olub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Hərbi institutun ərazisindəki büstü önünə gül dəstələri düzülərək ehtiram nümayiş etdirilib.

Nazirliyin rəhbərliyi, Hərbi institutun zabit, kursant və professor-müəllim heyəti, həmçinin şəhid ailələrinin iştirakı ilə institutun Vətən müharibəsində şəhid olan hərbi qulluqçularının xatirəsinə ucaldılan Xatirə kompleksinin açılış mərasimi keçirilib.

Tədbirin əvvəlində Ulu Öndər Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Şanlı Qələbəmizin tarixi əhəmiyyətindən danışıb. Şəhidlərimizin xalqımızın qürur mənbəyi olduğunu diqqətə çatdıran nazir onların valideynlərinə Vətənə layiqli övlad yetişdirdiklərinə görə təşəkkürünü bildirib.

Qeyd olunub ki, Hərbi institutdan 549 nəfər hərbi qulluqçu Vətən müharibəsində iştirak edib. Onlardan 10 nəfəri qəhrəmancasına şəhid olub, bir nəfər isə dövlətimizin başçısının müvafiq sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb.

Daha sonra şəhidlərin ailə üzvləri çıxış edərək göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə təşəkkürünü bildiriblər. Övladlarının bütün gənc nəslə nümunə olacaq qəhrəmanlıq və şücaətləri, torpaqlarımızın işğaldan azad edilməsi ilə xalqımızın xoşbəxt gələcəyinə səbəb olmaları ilə hər zaman fəxr etdiklərini bildiriblər.

Açılış mərasimindən sonra müdafiə naziri şəhid ailələri ilə söhbət edib, onların qayğıları ilə maraqlanıb və suallarını cavablandırıb.

Sonda birgə xatirə şəkli çəkdirilib.





# Müdafiə naziri şəhid ailələri ilə görüşdü

Heydər Əliyev adına Hərbi İnstitutun yaradılmasının 105-ci ildönümü münasibətilə tədbir keçirildi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti institutun qərargahı qarşısında Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər güllər düzdülər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi institutun həyətində İkinci Qarabağ müharibəsində şəhid olan hərbçilərin xatirəsinə ucaldılmış Xatirə kompleksinin açılışını etdi. Açılış mərasimində generallar, zabitlər, kursantlar, Hərbi institutun professor-müəllim heyəti, şəhid ailələri və qonaqlar da iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Hərbi Orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycan Ordusu 27 sentyabr 2020-ci ildə düşmənin təmas xəttində törətdiyi genişmiqyaslı təxribatlarının qarşısını almaq məqsədilə əks-hücum əməliyyatına başladı. Əsgərlərimizin sayıqlığı və yüksək döyüş hazırlığı nəticəsində işğalçılar ağır itkilərə məruz qalaraq geri çəkilmək məcburiyyətində qaldılar. Cəmi 44 gün davam edən Vətən müharibəsində düşmən ordusunu məğlubiyyətə uğratdıq və 28 ildən artıq işğalda saxlanılan tarixi torpaqlarımız azad edildi.

Müdafiə naziri nəzərə çatdırdı ki, tarixi qələbənin qazanılmasında Hərbi institutun da öz töhvələri var. 549 nəfər hərbi qulluqçu döyüşlərdə iştirak edib. Müharibənin ilk günündə onlar könüllü olaraq döyüşə getmək istədiklərini bildirmişdilər. İkinci Qarabağ müharibəsində bu təhsil ocağının 10 nəfər hərbi qulluqçusu şəhid olub. Onlardan pilot polkovnik Zaur Nudirəliyev ən yüksək fəxri ada - "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

Şəhid atası Mürvət Əsgərov çıxışında dedi ki, oğlu mayor Rüfət Əsgərov Hərbi institutda müəllim olub. Ali Baş Komandan İlham Əliyev əks-hücum əmri verəndə müharibəyə getmək üçün yuxarı komandanlığa ilk müraciət edənlərdən biri də mənim oğlum olub.

Mürvət Əsgərov Hərbi institutda keçirilən rəsmi tədbirlərə tez-tez dəvət edildiyini, bunun isə şəhid ailələrinə göstərilən diqqət olduğunu bildirdi. Biz də hərbçilərin bu çağırışını yüksək dəyərləndiririk. Çünki övladlarımız şəhid olmazdan əvvəl bu müqəddəs elm ocağında xidmət ediblər. Onlar da həmin biliklərdən yararlanaraq xidmətdə uğurlar qazanıblar.



Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə dövlət qayğısından söz açan Mürvət Əsgərov dedi:

- Bu gün şəhid ailələri, Qarabağ müharibəsi əlilləri dövlətimizin başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı ilə əhatə olunublar. Yerli icra hakimiyyətlərində yaradılan şöbələr bu qəbildən olan vətəndaşların qayğı və ehtiyaclarının həllinə cavabdehlik daşıyır. Davamlı olaraq bu qurumlar imtiyazlı ailələrin məişət şəraitinin, maddi və mənəvi vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq işlər aparırlar.

Şəhid kiçik leytenant Yaqub Nəcəfovun atası Məhəmməd Nəcəfov çıxış edərək İkinci Qarabağ müharibəsində üç oğlunun iştirak etdiyini dedi. Müharibə zamanı bir oğlunun şəhid, birinin qazi olduğunu bildirdi. Çıxışına davam edən M.Nəcəfov digər oğlunun bu gün də işğaldan azad edilmiş ərazilərimizdəki hərbi hissələrdən birində xidmətini şərəflə davam etdirdiyini bildirdi.

Məhəmməd Nəcəfov övladlarını vətənpərvər ruhda böyütdüyündən qürur duyur:

- Vətəni düşməndən qorumaq hamımızın müqəddəs borcudur. Övladlarım bu borcu şərəflə, ləyaqətlə yerinə yetirdilər. Onlar döyüşlərdə göstərdikləri fədakarlıqlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif medallara layiq görülüblər.

Üç il bundan əvvəl ən böyük arzumuz Şuşaya getmək, üçrəngli bayrağımızın Kəlbəcərdə, Laçında və digər torpaqlarımızda dalğalandığını görmək idi. Bizi bu istəyə, bu amala yetirən şanlı ordumuza həmişə güvənmişik. Başda ölkəmizin rəhbəri, möhtərəm Prezidentimiz İlham Əliyev olmaqla, bizə tarixi qələbənin sevincini yaşadan əsgər və zabitlərə sonsuz minnətdarıq. Müharibə varsa insan itkisi də var. Bu savaşda, bu döyüşdə biz övladlarımızı itirdik. Lakin onların qanı yerdə qalmadı. Otuz ilə yaxın düşmən işğalında qalan torpaqlarımız azad olundu. Bu qalibiyyətin, bu Zəfərin sevincini indi də yaşayırıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev adına Hərbi İnstitutun 105 illiyi qeyd olunub



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, martın 1-də Müdafiə Nazirliyinin rəhbər heyəti Heydər Əliyev adına Hərbi İnstitutun 105 illiyi ilə əlaqədar keçirilən tədbirdə iştirak edib.*

Tədbirdən əvvəl müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi institutun ərazisində yeni istifadəyə verilən idman kompleksində yaradılan şəraitlə tanış olub.

Müdafiə nazirinə məruzə edilib ki, kompleksdə kursantların fiziki hazırlığının daha da yaxşılaşdırılması, eləcə də idmanın bütün növü ilə məşğul olmaları üçün hər cür şərait yaradılıb.

Sonra Hərbi institutun 105 illiyinə həsr olunan tədbir keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə institutun rektoru general-mayor Fizuli Salahov çıxış edərək institutun tarixi, əsas fəaliyyət istiqamətləri, eləcə də məzunların əldə etdikləri nailiyyətlər barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, institutun məzunlarının qəhrəmanlığı hər zaman yüksək qiymətləndirilib, ölkə rəhbərliyi tərəfindən onlardan 7 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı", 46 nəfəri "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, 43 nəfər məzun isə "general" ali hərbi rütbəsinə qədər yüksəlib.

Hərbi institutun zabit, kursant və professor-müəllim heyətinin iştirakı ilə keçirilən tədbirdə müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edib.

Müdafiə naziri çıxışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə orduda aparılan islahatlardan, peşəkar kadr hazırlığının əhəmiyyətindən, hərbi təhsil sahəsində görülən işlərdən danışıb. Ən qabaqcıl orduların müasir, yeni nəsil silah və hərbi texnikasının Azərbaycan Ordusunun arsenalına daxil edilməsinin birbaşa Ali Baş Komandanın şəxsi nəzarətində olduğu diqqətə çatdırılıb. Vahid mərkəzdən operativ idarəetmə sisteminin yaradılmasının, yüksək döyüş qabiliyyətinə malik yeni komando hərbi hissələrinin mövcudluğunun orduda davam edən islahatların nəticəsi olduğunu qeyd edən nazir ordu quruculuğunda daima yeni yanaşmaların, daha effektiv metod və üsulların, müasir hərbi innovasiyaların tətbiq edildiyini bildirib.





Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətini diqqətə çatdıran nazir Hərbi institutun yetirmələrinin də döyüşlərdə göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrinin Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

İnstitutda hərbi mütəxəssislərin hazırlıq proqramının Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin hərbi məktəblərində tətbiq olunan proqramlara uyğunlaşdırılmasının Azərbaycan Ordusunda peşəkar zabit kadrlarının hazırlanması istiqamətində atılan mühüm addımlardan biri olduğu qeyd edilib.

General-polkovnik Zakir Həsənov kursantlara tədrisdə və gələcək xidmətlərində uğurlar arzulayıb, hərbi təhsil sisteminin daha keyfiyyətli və yüksək səviyyədə təşkili üçün aidiyyəti vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

Tədbirdən sonra müdafiə naziri kursantlarla birgə nahar edib, onların qayğıları ilə maraqlanıb və suallarını cavablandırıb.







# Azərbaycan Ordusunda ictimai-siyasi hazırlıq dərsləri keçirilir

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi üzrə tədbirlər çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının bütün kateqoriyaları ilə müdafiə nazirinin müvafiq qərarının tələblərinə uyğun olaraq ictimai-siyasi hazırlıq dərsləri keçirilir.

Keçirilən dərslərdə Azərbaycanda dövlətçilik, müstəqillik uğrunda aparılan mübarizə və ordu quruculuğu tarixi, xalqımızın hərbi ənənələri, Vətən uğrunda döyüşlərdə göstərilmiş qəhrəmanlıq nümunələri təbliğ edilir, regionda yaranmış hərbi-siyasi vəziyyət, dövlət rəhbərliyinin Azərbaycan Respublikasının müdafiə qüdrətini yüksəltmək, dövlətimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması üçün apardığı daxili və xarici siyasət barədə dinləyicilərə ardıcıl, məqsədyönlü, sistemli biliklər verilir, onlarda Vətənə, xalqa hədsiz məhəbbət, Silahlı Qüvvələrin Ali Baş Komandanına və Hərbi anda sədaqət, nizamnamələrin tələblərinə, komandirlərin (rəislərin) əmrlərinə sözsüz tabe olmaq hissləri tərbiyə edilir, şəxsi heyət öz vəzifə borclarını ən çətin şəraitdə belə yerinə yetirməyə səfərbər edilir. Həmçinin hərbi qulluqçularla keçirilən dərslər zamanı işğaldan azad olunan ərazilərin tarixindən, o cümlədən İkinci Qarabağ müharibəsi və müharibədən sonrakı illərdə düşmən təxribatlarının qarşısı alınarkən aparılan hərbi əməliyyatlarda hərbçilərimizin göstərdikləri igidlik və şücaət nümunələrindən bəhs edilir, onları maraqlandıran suallar cavablandırılır və xidmətləri ilə bağlı lazımi tövsiyələr verilir.



İctimai-siyasi hazırlıq dərslərinin yüksək səviyyədə təşkil olunması və səmərəli keçirilməsi hərbi qulluqçulara milli-mənəvi dəyərlərə sədaqət, möhkəm hərbi-intizam, qorxmazlıq, cəsurluq kimi müsbət keyfiyyətlər aşılayır, dünya görüşlərini və biliklərini daha da artırır. Döyüş hazırlığının ayrılmaz tərkib hissəsi olan ictimai-siyasi hazırlıq dərslərinin səmərəli keçirilməsi üçün Azərbaycan Ordusunun bütün bölmələrində yüksək tərtibatla hazırlanmış, bütün zəruri avadanlıqlarla təmin olunmuş ideoloji otaqlar hazırlanıb. Həmin otaqlarda dövlət rəmzlərini, Azərbaycan Ordusunun inkişaf tarixinin mərhələlərini, Ulu Öndər Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin əsgərlərlə görüşlərini, erməni təcavüzünü, Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünün bərpası naminə nailiyyətlərini əks etdirən stendlər yerləşir. Bunların hamısı əsgərlərin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, vətənpərvərlik hissinin və döyüş ruhunun artırılmasında mühüm rol oynayır.

**"Azərbaycan Ordusu"**

# “Qardaşların gəlişi şəfa gətirdi”

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişinə əsasən, Türkiyədə baş verən zəlzələdə yaralanan insanlara kömək etmək məqsədi ilə 20 nəfərdən ibarət hərbi tibb personalı qardaş ölkəyə göndərilmişdi. Onlar üzərlərinə düşən vəzifələri bacarıqla yerinə yetirərək 21 gündən sonra Vətənə qayıdıblar.*

Türkiyədə baş vermiş zəlzələdə yaralanan insanlara tibbi yardım göstərən hərbi həkimlərdən eşitdiklərimiz ürəyimizi dağa döndərdi. Hərbi həkim qrupunun rəhbəri, Müdafiə Nazirliyi Baş Klinik Hospitalın ümumi cərrahiyyə şöbəsinin rəisi - aparıcı cərrah polkovnik-leytenant Niyaməddin Ağamaliyev Türkiyə Respublikasının Kahramanmaraş şəhərində baş verən zəlzələdə yaralanan insanlara göstərdikləri tibbi yardımdan söz açdı. Dedi ki, qardaş ölkədə baş verən dəhşətli təbii fəlakət hamımızı sarsıtdı. “Zəlzələnin ertəsi günü - fevral ayının 7-də kömək məqsədilə Türkiyəyə yola düşdük.





Həmin gün Adana şəhərinin valisi bizi Kahramanmaraşa çatdırmaq üçün avtomobillə təmin etdi. Şəhərə çatan kimi səhiyyə şöbəsinə getdik. Hərbi tibb personalımızı Nəcib Fazil adına xəstəxanaya göndərdilər. Həmin xəstəxana da zəlzələyə məruz qalmışdı. Nə qədər təhlükəli olsa da, elə bu vəziyyətdə də yaralılara tibbi yardım göstərməyə başladıq. Fevralın 9-dan etibarən fəaliyyətimizi zəlzələ bölgəsində açılan Türkiyə Respublikası Silahlı Qüvvələrinin səyyar xəstəxanasında davam etdirdik. 21 gün ərzində 81 cərrahiyyə əməliyyatı apardıq, 517 nəfərə ambulator xidmət göstərdik. Türk qardaşlarımız xidmətimizdən razı qalır, minnətdarlıq edirdilər. Biz onlara deyirdik ki, bu, bizim qardaş qayğısıdır. Həyatını xilas etdiyimiz qadınlardan birinin dediyi: "Siz nicat kimi gəldiniz, bizə həyat verdiniz" sözlərini heç vaxt unutmayacağam. Həkim və tibb bacıları üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəldilər. Türkiyədə olduğumuz günlərdə qardaş ölkənin səhiyyə naziri Fəxrəddin Hoca, Milli Müdafiə naziri Hulusi Akar və Milli Müdafiə Nazirliyinin tibb xidməti rəisi general-mayor, professor Mustafa Gerek səhra xəstəxanasına gəldilər, hamımızla görüşdülər. Milli Müdafiə naziri Hulusi Akar yaralılara göstərdiyimiz xidmət və qayğıya görə bizə minnətdarlığını bildirəndən sonra dedi ki, sizin acınız bizim acımız, sizin sevinciniz bizim sevincimizdir. Bu sözlər görülənlərə verilən qiymət idi və daha da əzmlə xidmət etməyimizə stimul oldu.

Səyyar xəstəxanaya gətirilən bütün yaralılara yüksək səviyyədə tibbi xidmət göstərilirdi. Yaralılar başqa ölkələrin həkimlərindən daha çox bizə üz tuturdular. Onlar digərlərinə qonaq, bizə qardaş deyirdilər. Düşünürəm ki, Türkiyədə ölkəmizin şərəfini layiqincə təmsil etdik. Nəticədə türk qardaşlarımız bizi çox böyük hörmətlə yola saldılar. Yolasalma mərasimində İstanbul valisi şəxsən iştirak etdi. O, nümayəndə heyətinin bütün üzvlərinə xatirə döş nişanı bağışladı. Göstərilən köməyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi”.

- Yaxşı dost dar gündə tanınar, - deyə tibb xidməti polkovnik-leytenantı Ceyhun Yusifov söhbətimizə qoşuldu. - Türk qardaşlarımızın köməyinə ilk çatan Azərbaycanın hərbi həkimləri oldu. Mən otorinoloq kimi bir neçə nəfəri əməliyyat etdim. Neçə-neçə insanın həyatını xilas etdim. Qrupumuzdakı həkimlərin və tibb bacılarının hamısı üzərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəldilər.

Tibb xidməti polkovnik-leytenantı, travmotoloq Bəhram Qurbanov dedi ki, Ulu Öndər Heydər Əliyev Türkiyə ilə Azərbaycanın dostluğu haqqında böyük uzaqgörənliklə: "Bir millət - iki dövlət" - deyib. Türkiyədə baş verən zəlzələdə yaralananlara kömək etməyə gedəndə böyük qürur və iftixar hissləri keçirirdik. Çünki türk qardaşlarımızın xilasına gedirdik. İlk günlər yaralılar çox oldu. Türkiyədə olduğumuz günlərdə bizə bəslənən ümidləri doğrultduq. Yaralılara tibbi xidmət göstərdik, insanları ölümün əlindən aldıq.



- Fevralın 6-nı Türkiyədə baş verən zəlzələ xəbəri ilə açdıq, - deyə tibb xidməti kapitanı Ceyhun Əliyev sözə başladı. - Böyük bir ərazidə zəlzələ baş vermişdi. Minlərlə insan həlak olmuşdu. Biz yaralıların köməyinə tələsirdik. Çünki zəlzələ bölgəsinə nə qədər tez çatsaydıq, daha çox insanın həyatını xilas edəcəkdik. Kahramanmaraş şəhərinə yetişən kimi yaralıları qəbul etdik. 21 gün ərzində, sözün həqiqi mənasında, insanların sağlamlığı keşiyində dayandıq. Düşünürəm ki, neyrocərrah kimi üzərimə düşən vəzifələri layiqincə yerinə yetirdim.

Tibb xidməti mayoru Şükür Rüstəmov dedi ki, yaralılara tibbi xidmət göstərmək üçün bizim kifayət qədər təcrübəmiz var idi. Biz bu təcrübəni İkinci Qarabağ müharibəsində qazanmışdıq. Buna görə də yaralı türk qardaşlarımızın həyatını xilas edərkən heç bir çətinlik çəkmədik. Zəlzələdə insanlar təkcə fiziki cəhətdən deyil, mənəvi cəhətdən də yaralanmışdılar. Türk qardaşlarımız bir gecənin içində doğmalarını itirib çaş-baş qalmışdılar. Biz belə insanlardan mənəvi dəstəyimizi də əsirgəmirdik.

- Həyatımda belə fəlakət və dağıntını ilk dəfə görsəm də, özümü itirmədim, - deyə tibb xidməti baş leytenantı Günay Məmmədova söhbətimizə qoşuldu. - Çünki bura uçqunlar altında qalmış insanlara kömək etmək üçün gəlmişdik. İşimiz nə qədər çətin olsa da, məsuliyyətimizi dərindən dərk edirdik. Hər yaralını xilas etdikcə elə bil yorğunluğumuzu unudurduq. 102 saat dağıntılar altında qalmış 43 yaşlı qadının həyatını xilas edəndə sanki dünyanı bizə verdilər. Böyük çətinliklərə qalib gələrək neçə-neçə insanın həyatını xilas etdik. Necə deyərlər, yaralı insanlara əsl qardaş köməyi göstərdik.

Baş tibb bacısı baş çavuş Aygün Qafarova dedi ki, əməliyyatlar zamanı biz tibb bacılarının üzərinə də məsuliyyətli vəzifələr düşürdü. Bütün sutka ərzində dayanmadan işləyirdik. İşlər növbəli şəkildə təşkil olunmuşdu. Həkimlərimiz gecə və gündüz səyyar xəstəxanaya gətirilən yaralılara tibbi yardım göstərir, onların həyatı uğrunda mübarizə aparırdılar. Xilas etdiyimiz yaralılar bizə ağızdolusu minnətdarlıq edirdilər. Bu xoş sözlər bizim üçün ən böyük mükafat idi.

Tibb xidməti əsgəri, tibb bacısı Xalidə İsmayılova dedi ki, tibb işçilərinin ən başlıca vəzifəsi insanların sağlamlığı keşiyində dayanmaqdır. Türkiyə Respublikasında olarkən heyət üzvləri yaralıların həyatını xilas etmək amalı ilə çalışırdılar. Çalışqanlığımız müsbət nəticələr verirdi. Biz türk qardaşlarımızın həyatını xilas etdik. Həkimlərimiz də, tibb bacılarımız da üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Xalqımızı, dövlətimizi layiqincə təmsil etdilər.

- Həkimlik peşəsi müqəddəsdir. Darda qalan insanların həyatını xilas edəndə bu peşə daha da müqəddəsləşir, - deyə tibb bacısı, anastezist baş çavuş Nişanə Məmmədova söhbətimizə qoşularaq ürək sözlərini bizimlə bölüşdü. - Atam Məhəmməd Məmmədov 1994-cü ildə Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olub. Bunu ona görə xatırladıram ki, doğmalarını itirməyin nə demək olduğunu mən hələ kiçik yaşlarımdan yaxşı bilirəm. Türkiyə Respublikasında baş verən zəlzələdə də insanlar doğmalarını, əzizlərini itirmişdilər. Dövlətimiz təcili olaraq biz həkimləri və tibb bacılarını zəlzələdə yaralanmış insanların köməyinə göndərdi. Bizə bəslənən ümidləri doğrultduq. Türk qardaşlarımızın köməyinə birinci biz yetişdik, zəlzələ bölgəsini də axırıncı biz tərk etdik. Üzərimizə düşən vəzifələri sona qədər yerinə yetirdik.

Baş gizir Ravil Abdullayev dedi ki, təbii fəlakətin ilk günündən həm xalq olaraq, həm də dövlət olaraq qardaş Türkiyənin köməyinə çatmağa çalışdıq. Xalqımız çətinlikdə qalmış qardaşına, bacısına yardım əlini uzatmağa tələsirdi. Kimisi evindən cehizlik yorğan-döşəyini, kimisi isti paltarlarını, kimisi də aldığı təqaüdü zəlzələdən zərərçəkənlərə yardım üçün göndərirdi. Hadisə yerinə tibbi yardım göstərmək üçün gedəcəyimizi eşidəndə mən də digər yoldaşlarım kimi dərhal



yardıma tələsdim. Ezam olunduğumuz ilk gündən Kahramanmaraş şəhərində fəaliyyətə başladıq. Tamamilə dağılmış binaların altından yaralı insanların çıxarılması Allahın möcüzəsi idi. Dağıntılar altından çıxarılıb xəstəxanamıza gətirilən hər yaralı ölümün pəncəsindən qurtulan bir can demək idi. Həkimlərimiz düzgün və vaxtında edilən müdaxilə ilə yüzlərlə insanı yenidən həyata qaytardı. Müayinə və müalicə olunan xəstələrin bizim tibbi personalımıza olan sevgisi, inamı sonsuz idi. Ailəsi ilə birlikdə dağıntılar altından çıxarılan azyaşlı bir qızın bizə ünvanladığı sevgi dolu məktubu, bizim Azərbaycana qayıtmağımızı istəməməsi hər birimizi çox, lap çox kövrəltmişdi, ağladıq da.

Gizir Bəhruz Hacalıyev isə bunları dedi: “İstər İkinci Qarabağ müharibəsi, istərsə də Türkiyədə baş verən zəlzələ Azərbaycan və Türkiyə qardaşlığının gerçəkliyi kimi yaşanıldı. Bunu bütün dünya gördü”. Bu sözləri fəaliyyət göstərdiyimiz səhra xəstəxanasında müalicə alan bir türk vətəndaşı demişdi. Həqiqətən də dünya mətbuatı bu gün Türkiyə-Azərbaycan birliyindən danışır. Qardaş Türkiyədə baş verən zəlzələ hər birimizin yaddaşında silinməz, kədərli izlər buraxsa da, bu birliyi hər zaman qürurla xatırlayacağıq.

**(Ardı 7-ci səhifədə)**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: Azərbaycan xanlıqlar dövründə

**Suallar:**
**1. Xanlıqların yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**
**2. Azərbaycan xanlıqları.**

### Xanlıqların yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət

XVIII əsrin I yarısında Azərbaycan ərazisində ölkənin sonrakı taleyinə çox ciddi, həm də mənfi təsir göstərmiş bir sıra ictimai-siyasi hadisələr baş verdi. Azərbaycanda gedən tarixi proseslər Cənubi Qafqazda, Səfəvilər dövlətində, Osmanlı İmperiyasında və çar Rusiyasında cərəyan edən hadisələrlə sıx bağlı idi. Bu dövrdə Səfəvilər dövlətinin tam tənəzzülü ilə əlaqədar Cənubi Qafqaz ərazilərinə yiyələnmək uğrunda qarşıdurmalar yenidən gücləndi. Tarixi hadisələrin gedişinə təsir edən mühüm amillərdən biri də çar Rusiyasının bu regiondakı siyasi və iqtisadi marağının artması idi. Çar Rusiyası özünün inkişaf etməkdə olan iqtisadiyyatını xammalla təmin etmək, Volqa-Xəzər ticarət yolunu inkişaf etdirib genişləndirmək məqsədilə Xəzəryanı ərazilərə yiyələnməyə can atırdı və digər dövlətlərin, ilk növbədə Osmanlı İmperiyasının həmin ərazilərdəki nüfuzunun artmasına hər vasitə ilə mane olmağa çalışırdı. Azərbaycan faktiki olaraq XVIII əsrin ortalarından başlayaraq əsrin sonuna kimi 3 dövlətin - Qacarlar dövlətinin, Osmanlı İmperiyasının və çar Rusiyasının mənafelərinin toqquşduğu məkana çevrilmişdi. Ölkə ərazisi bu dövlətlər arasında nüfuz dairələrinə parçalanırdı və təbii ki, belə bir vəziyyət Azərbaycanın tarixi-siyasi coğrafiyasına əsaslı təsir edirdi.

Hələ 1722-ci ildə I Pyotrun yürüşü nəticəsində Xəzərin bütün qərb və cənub-qərb sahilləri rus qoşunları tərəfindən zəbt edilmişdi. 1723-cü ildə isə türk qoşunları Cənubi Qafqaza daxil oldu. 1724-cü ildə çar Rusiyası ilə Osmanlı imperiyası arasında bağlanan İstanbul müqaviləsinə görə Cənubi Qafqaz ərazisi iki dövlət arasında nüfuz dairəsinə bölündü. Əsrin 30-cu illərində Azərbaycan ərazisi Səfəvi-Osmanlı imperiyaları arasında gedən yeni mübarizələrin obyektinə çevrildi.

Nadir şahın hakimiyyətə gəlməsi və fəaliyyəti Azərbaycan torpaqlarının parçalanması prosesinə ikitərəfli və əsaslı təsir göstərdi. Düzdür, o, Qarabağın məlikliklərini - Vərənd, Çilabert, Gülüstan, Dizaq və Xaçın ərazilərini Gəncə bəylərbəyliyinə tabe etdi və sonra səfəvilərin inzibati bölgüsünə əsasən mövcud olan Qarabağ, Şirvan, Çuxur-Səəd və Təbriz bəylərbəyliklərini ləğv edərək Azərbaycan adı altında vahid inzibati bölgü yaratdı. Vahid Azərbaycanın mərkəzi Təbriz, hakimi isə Nadir şahın qardaşı İbrahim oldu. XVIII əsrin II yarısında Qazaxda azərbaycanlıların sultanlığı yarandı, Nadir şahın öldürülməsindən sonra (1747) onun dövləti süquta uğradı və ayrı-ayrı vilayətlərdə, o cümlədən, Azərbaycanda ciddi parçalanma baş verdi. XVIII əsrin I yarısı Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından aşağıdakı səciyyəvi cəhətlərə malikdir:

1. Səfəvilərin hakimiyyətinin sonuna (1736) kimi Azərbaycan ərazisi bəylərbəyiliklərə (4 bəylərbəyiliyə - Qarabağ, Şirvan, Çuxur-Səəd, Təbriz) bölünmüşdü;

2. Şirvan (Xəzəryanı sahələr istisna olmaqla) 1721-1735-ci illərdə əsarətdən azad olub müstəqilliyə nail olsa da, Osmanlı imperiyasının nominal asılılığında qalırdı;

3. Azərbaycanın Xəzəryanı əraziləri çar Rusiyasının tərkibinə daxil edilmişdi (1722-1735);

4. İstanbul müqaviləsinə əsasən (1724) Azərbaycan ərazisi Osmanlı imperiyası ilə çar Rusiyası arasında bölünmüşdü;

5. Rəşt (1732) və Gəncə (1735) müqavilələrinə görə, Xəzəryanı ərazilər çar Rusiyasının nüfuz dairəsindən Səfəvilər dövlətinin nüfuz dairəsinə keçmişdi;

6. 1736-cı ildə Səfəvilər dövründəki bəylərbəyilik sistemi ləğv edilmiş, 4 bəylərbəyilik birləşdirilərək vahid Azərbaycan vilayəti yaradılmışdı;

7. Azərbaycanın Borçalı və Qazax əraziləri Nadir şah tərəfindən 1743-cü ildə Şirvanda yalançı Sam-Mirzənin başçılığı ilə Nadirə qarşı qalxmış üsyanı yatırdığından Kaxetiya çarı Teymuraza verilmişdi;

8. Nadirin ölümündən sonra ölkədə parçalanma prosesi şiddətlənmiş, Azərbaycan 30 (20 xanlıq, 5 sultanlıq və 5 məliklik) hissəyə ayrılmışdır.

### Azərbaycan xanlıqları

XVIII əsrin II yarısı da Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından xüsusi dövrdür. Bir tərəfdən Azərbaycan öz müstəqilliyinə nail olur, qonşu dövlətlərin, imperiyaların nüfuzundan çıxa bilir, digər tərəfdən isə vahidliyini itirir və heç də geniş olmayan ərazisində çoxsaylı müstəqil feodal dövlətləri - xanlıqlar və başqa dövlət qurumları təşəkkül tapırdı.

Azərbaycanın XVIII əsrin II yarısında ərazisi Səfəvilər dövründəki ərazisindən çox da fərqlənmirdi. Yeganə fərq şimali-qərb istiqamətində Borçalı ərazisinin itirilməsi idi. Ölkənin sahəsi təxminən 380.000 kv.km. (səfəvilər dövrü təx. 400.000 kv.km) idi.

### Azərbaycanın cənub xanlıqları

- Təbriz xanlığı (XVIII əsrin ortaları-1780) Xoy, Ərdəbil, Sərab, Qaradağ, Marağa xanlıqları və Urmiya gölü ilə həmsərhəd idi. Təbriz, Güney və Mərənd mahallarına bölünmüşdü. Əsasını əfşar tayfasından olan Əmiraslan xan qoymuşdu, mərkəzi Təbriz şəhəri idi. 1780-ci ildə xanlığın fəaliyyətinə son qoyuldu, ərazisi Xoy xanlığının tərkibinə qatıldı.

- Ərdəbil xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) Talış, Qaradağ, Təbriz, Marağa, Sərab xanlıqları və Gilan vilayəti ilə həmsərhəd idi. Əsası Bədir xan tətəfindən qoyulmuşdu, mərkəzi Ərdəbil şəhəri idi. Əsrin əvvəllərində şahsevənlər 4 qola ayrılır, Ərdəbil, Mişkin, Talış və Qaradağda ayrıayrılıqda fəaliyyət göstərməyə başlayır. XVIII əsrin sonu Ərdəbil xanlığı Qacarlar dövlətindən asılı vəziyyətə düşür və fəaliyyətinə son qoyulur.

- Marağa xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) cənubdan Saqqız mahalı, şimaldan Təbriz, qərbdən Urmiya, şərqdən Ərdəbil xanlıqları ilə həmsərhəd idi. Əsası müqəddəm (Qarabağın Cavanşir elinin bir qolu) tayfasının başçısı Əliqulu xan tərəfindən qoyulmuş, mərkəzi Marağa şəhəri idi. XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

- Maku xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) Maku Səfəvilər dövründə Çuxur-Səəd bəylərbəyliyinin tərkibinə daxil idi. XVIII əsrin ortaları yaranmış Maku xanlığı bayat tayfası tərəfindən idarə olunurdu. XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

- Qaradağ xanlığı (XVIII əsrin ortaları-1782) Lənkəran, Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Qarabağ və Cavad xanlıqları ilə hüdudlanırdı. Əsası Kazım xan tətəfindən qoyulmuşdu, mərkəzi Əhər şəhəri idi. Tərkibinə 18 mahal daxil idi. 1782-ci ildə Qarabağ və Xoy xanlıqları arasında bölüşdürülərək müstəqilliyini itirmişdi.

- Sarab xanlığı (XVIII əsrin ortaları-1786) Ərdəbil və Təbriz xanlıqları ilə həmsərhəd idi. Ərazisi Həştəri, Gərməli və Sarab mahallarına bölünmüşdü. Mərkəzi Sarab şəhəri idi. Əsası şəqaqi tayfasının başçısı Əli xan tərəfindən qoyulmuşdu. XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

- Xoy xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) Maku, Naxçıvan, Qaradağ, Təbriz, Urmiya xanlıqları və Osmanlı imperiyası ilə həmsərhəd idi. Əsası Şahbaz xan tərəfindən qoyulmuşdu, mərkəzi Xoy şəhəri idi. XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

- Urmiya xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) şimalda Xoy xanlığı, şərqdə Urmiya gölü və Marağa xanlığı, cənubda və qərbdə Osmanlı imperiyası ilə həmsərhəd olmuşdur. Mərkəzi Urmiya şəhəri idi. Əsası Urmiyanın irsi hakimi olan əfşar tayfa başçısı Fətəli xan Əfşar tərəfindən qoyulmuşdu. XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

### Azərbaycanın şimal xanlıqları

- Qarabağ xanlığı (XVIII əsrin ortaları-1822) Kür və Araz çayları arasında yerləşirdi, mərkəzi Şuşa şəhəri idi. Sərhədləri Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə hüdudlanırdı. Əsası Pənahəli xan Cavanşir tərəfindən qoyulmuşdu. Onun dövründə Bayat, Şahbulaq qalaları tikilmiş, Əsgəran qalası möhkəmləndirilmişdi. Əhalisini Cavanşir, İyirmi dörd, Otuzikilər, kəbirli, ziyadoğlu, baharlı tük tayfaları təşkil edirdi. Xanlıq 1805-ci ildə Kürəkçay müqaviləsinə əsasən çar Rusiyasına ilhaq edilmiş, 1822-ci ildə çar fərmanı ilə ləğv edilmişdir.

- Şəki xanlığı (XVIII əsrin ortaları-1819) qərbdən İlisu sultanlığı, şərqdən Şamaxı xanlığı, cənubdan Qarabağ və Gəncə xanlıqları, şimaldan Quba xanlığı ilə həmsərhəd olmuş, mərkəzi Nuxa şəhəri idi. Əsasını Hacı Çələbi xan qoymuşdu. Şəki xanlığı Azərbaycanın ən iri xanlıqlarından olmuş, ərazisi 8 mahala bölünmüşdü. Qəbələ və Ərəş sultanlıqları da Şəki xanlığından asılı idilər. Hacı Çələbinin dövründə Azərbaycanın birləşdirilməsinə cəhd olunub. Xanlıq 1805-ci il mayın 21-də ikinci Kürəkçay müqaviləsinə əsasən çar Rusiyasına ilhaq edilmiş, 1819-cu ildə isə çar fərmanına əsasən ləğv olunmuşdu.

- Quba xanlığı (1726-1806) Azərbaycanın şimali-şərqində mövcud olmuşdur. Hələ 1724-cü ildə Quba əyaləti çar Rusiyasının tərkibinə daxil edilmişdi. Hakimi Hüseynəli xan idi. Paytaxtı əvvəl Xudat, 1735-ci ildən Quba şəhəri olmuşdu. Xanlıq şərqdə Xəzər dənizi, şimalda Dərbənd xanlığı və Tabasaran əraziləri, qərbdə Şəki xanlığı, cənubi-qərbdə Şamaxı, cənubda Bakı xanlığı ilə həmsərhəd idi. Quba xanlığı öz qüdrəti ilə seçildiyindən bəzən Dərbənddən Salyana (əsrin 60-cı illərində) kimi ərazilər onun nüfuz dairəsində olmuşdu. Quba xanlığı 1806-cı ildə çar Rusiyasına ilhaq edilmişdi.

- Bakı xanlığının (XVIII əsrin ortaları-1806) əsasını Nadir şahın ölümündən sonra yerli feodallardan biri olan Mirzə Məhəmməd xan qoymuşdu. Xanlığın ərazisi Abşeron yarımadası və Bakı şəhərini əhatə edirdi. Paytaxtı Bakı şəhəri olan bu xanlıq Şamaxı və Quba xanlıqları ilə həmsərhəd idi. 1806-cı ildə Azərbaycanın şimalı və Bakı xanlığı çar Rusiyasına ilhaq olundu.

- Dərbənd xanlığı (XVIII əsrin ortaları-1806) əsası Məhəmməd Hüseyn xan tərəfindən qoyulmuş və Azərbaycanın şimali-şərqində fəaliyyət göstərmişdi. Qaraqaytaq usmiliyi, Tabasaran, Qaziqumuq və Quba xanlığı ilə həmsərhəd idi. Paytaxtı Dərbənd şəhəri olan bu xanlıq 40 il Quba xanlığından asılı olmuşdu. Xanlığın fəaliyyətinə 1806-cı ildə son qoyulmuş, çar Rusiyasının əyalətinə çevrilmişdi.

- Gəncə xanlığı (XVIII əsrin ortaları-1804) Murovdağ silsiləsindən Kür çayına kimi olan əraziləri əhatə edirdi. Xanlığın əsasını qacar tayfasının ziyadoğlular nəslindən olan Şahverdi xan qoymuşdu. Xanlıq Şəki, Qarabağ, İrəvan xanlıqları, Qazax, Şəmşəddil sultanlıqları və Gürcüstanla həmsərhəd idi. Paytaxtı Gəncə şəhəri olmuşdu. 1786-cı ildə hakimiyyətə gələn Cavad xan 1804-cü il yanvarın 3-də Sisianovla döyüşdə öldürüldükdən sonra xanlığın ərazisi çar Rusiyasına ilhaq olundu.

- İrəvan xanlığı (XVIII əsrin ortaları-1828) Ağrı vadisi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşirdi. Naxçıvan, Qarabağ, Maku xanlıqları, Osmanlı imperiyası, Kartil-Kaxetiya çarlığı və Borçalı, Qazax sultanlıqları ilə həmsərhəd olmuşdu. Xanlığın əsasını Mir Mehdi xan Əfşar qoymuşdu, mərkəzi İrəvan şəhəri idi. Gülüstan (1813) müqaviləsinə görə Qacarlar dövlətinin, Türkmənçay (1828) müqaviləsinə əsasən çar Rusiyasının tərkibinə qatılır və onun əyalətinə çevrilir.

- Lənkəran (Talış) xanlığı (XVIII əsrin ortaları-1826) Talış dağları, Xəzər dənizi və Muğan düzü arasındakı torpaqlar, Gilan, Ərdəbil, Qaradağ, Cavad, Salyan xanlıqları həmsərhəd idi. Mərkəzi qızılağaclı Musanın dövründə Astara, ərdəbilli seyid Abbasin dövründə isə Lənkəran şəhəri olmuşdu. Lənkəran, Astara, Qızılağac kimi ticarət mərkəzlərinə malik idi. Xanlığın əsasını səfəvi nəslindən olan Cəmalləddin Mirzə bəy (Qara xan) qoymuşdu. Xanlıq 1800-cü ildə çar Rusiyasının nüfuz dairəsinə düşmüş və 1826-cı ildə çar fərmanı ilə ləğv edilmişdi.

- Naxçıvan xanlığı (XVIII əsrin ortaları-1827) Zəngəzur dağlarından Araz çayına kimi olan əraziləri əhatə edirdi. Mərkəzi Naxçıvan şəhəri olan bu xanlıq İrəvan, Qarabağ və Maku xanlıqları ilə həmsərhəd olmuşdu. Xanlıq Kəngərli tayfasının başçısı Heydərqulu xan tərəfindən təsis edilmişdi. 1797-ci ildə xanlıq Qacarlar dövlətindən asılı vəziyyətə düşmüş, 1828-ci ildən Türkmənçay müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdi.

- Salyan xanlığı son vaxtlara qədər "Salyan sultanlığı" kimi tanınırdı və qonşu xanlıqların tərkibində göstərilirdi. Lakin son tarixi ədəbiyyatda onun Kür çayının mənsəbində kiçik xanlıq olduğu bildirilir. Xanlıq şərq tərəfdən Xəzər dənizi, şimaldan Şamaxı xanlığı, qərbdə Cavad xanlığı, cənubda Talış xanlığı ilə həmsərhəd idi.

- Cavad xanlığı (XVIII əsrin ortaları-1813) Kür ilə Arazın qovuşduğu yerdə mövcud olmuşdu. Şamaxı, Qarabağ, Qaradağ, Lənkəran və Salyan xanlıqları ilə həmsərhəd idi. Əsasını şahsevən tayfasından Həsən xan qoymuşdu, mərkəzi Cavad qalası idi. 1768-ci ildən Quba xanlığından asılı olmuş, onun tərkibində çar Rusiyasına birləşdirilmişdi.

(Ardı 7-ci səhifədə)

# “Qardaşların gəlişi şəfa gətirdi”

(Əvvəli 5-ci səhifədə)

Baş çavuş Fəvvarə İbrahimova dedi ki, ezam olunduğumuz ilk gündən Türkiyədə Azərbaycanın və azərbaycanlıların necə sevildiyinin şahidi olduq. Yaralı və ambulator xəstələr yalnız bizim olduğumuz səhra çadırlarında müayinə və müalicə olunmaq istəyirdilər. Bu, bizi çox qürurlandırırdı. Xidmət etdiyimiz səhra xəstəxanasına daxil olan yaralılar "türkün türkdən başqa dostu yoxdur" ifadəsini işlədirdilər.

Baş çavuş Aygün Məmmədova dedi ki, Türkiyədə baş verən zəlzələni həqiqətən də əsrin fəlakəti adlandırmaq olar. Orada gördüklərimizi sözlə ifadə etmək çox çətindir. Kahramanmaraşa çatdığımız gün tibbi personala ehtiyacın yüksək olduğunu gördük. Çünki xəstəxanalarda çalışan tibb işçilərinin bir çoxu təbii fəlakət nəticəsində həyatını itirmiş, bəzilərinin isə yaxın qohumları zəlzələnin qurbanı olmuşdular. Bu səbəbdən şəhərdə ilk günlərdə tibb heyəti baxımından çatışmamazlıq var idi. Yaxşı xatırlayıram ki, zəlzələ bölgəsinə çatdığımız gün bir qadın bizə yaxınlaşaraq dayısının zəlzələdən öncə açıq ürək əməliyyatı olunduğunu, indi həkimlərin işə gəlmədiyindən nəzarətsiz qaldığını bildirdi. Dərhal xəstə nəzarətə götürüldü. Həkimlərimiz mənə və həmkarım kiçik çavuş Sevil Əhmədovaya lazımi tapşırıqlar verdilər.

Vaxtında edilən müdaxilə nəticəsində xəstənin həyatı xilas oldu. Onun yaxınları bizə minnətdarlıqlarını bildirdilər. Belə halları gördükdə çətinlikləri unudurduq. İnsanların üzündəki təbəssüm bizi sevindirirdi.





Baş çavuş Səadət İbrahimova dedi ki, Türkiyədə olduğumuz zaman özümüzlə bağlı hər şeyi unutmuşduq. Ağlımızda olan yeganə fikir yaralıları xilas etmək idi. Yaralılara tibbi yardımla yanaşı, həm mənəvi, həm də psixoloji yardım göstərirdik. Həmin anlarda xəstələrin təkcə dava-dərmana deyil, gülüşə, xoş sözə də ehtiyacları var idi. Belə insanlara xüsusi diqqət və qayğı göstərir, psixoloji söhbətlər aparırdıq.

- Üç ildən artıqdır ki, tibb bacısı - anestezist kimi xidmətdəyəm - deyə baş çavuş Elnarə Nikipur söhbətimizə qoşuldu. Çox xəstələr, yaralılar görmüşəm. Ancaq zəlzələ bölgəsində gördüklərim daha acınacaqlı idi. Dağıntılar altından çıxarılan yaralı körpələri, uşaqları görmək bir qadın olaraq mənim üçün çox çətin idi. Bütün bu psixoloji çətinliklərə baxmayaraq, vəzifəmizin öhdəsindən layiqincə gəlməyi bacardıq.

Baş çavuş Nişanə Məmmədova dedi iki, Türkiyədə baş verən hadisəni eşidəndə bilirdik ki, dağıntılar altında çoxsaylı insanlar qalıb və onların tibbi yardıma ehtiyacları var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi tapşırığı ilə qardaş ölkəyə hərbi həkimlərdən ibarət qrupun ezam olunacağını eşidəndə, mən də getmək istədiyimi rəhbərliyə bildirdim. Vətən müharibəsində qazandığım təcrübəni nəzərə alaraq komandanlıq müraciətimi müsbət qarşıladı. Fevral ayının 7-də Kahramanmaraş şəhərində dağıntılar altından çıxarılan yaralılara tibbi yardım göstərməyə başladıq. Hər şey mənə Vətən müharibəsini xatırladırdı. Müharibə zamanı olduğu kimi burada da yaralıların həyatını xilas etmək üçün sanki zamanla yarışırdıq. Bilik və bacarığımızdan maksimum istifadə edərək həkimlərimizin verdiyi tapşırıqları vaxt itirmədən icra edirdik. Nə qədər çətin olsa da, orada olmaq, insanların ümidinə çevrilmək qürurverici idi.

Kiçik çavuş Sevil Əhmədova dedi ki, Türkiyə Respublikasında zəlzələnin baş verdiyini eşidəndə hamı kimi mən də sarsıldım. Fevralın 7-də Heydər Əliyev adına Beynəlxalq Hava Limanından əvvəlcə İstanbula yola düşdük, Adanaya, sonra Kahramanmaraş şəhərinə gedib çatdıq. Şəhərə çatanda qarşılaşdığımız mənzərədən dəhşətə gəldik. Hər yer dağılmış, daş-betondan ibarət hündür binalar təpələrə çevrilmişdi. Vaxt itirmədən fəaliyyətə başladıq. Yaralılara doğmalarımız kimi baxırdıq. Azərbaycanın çətin günlərində Türkiyə dövlətinin və xalqının bizim yanımızda olduğu kimi, biz də onların çətin günlərində az da olsa köməklərinə çatdığımızı düşündükdə qürur hissi keçirirdim.



Hərbi həkimlərimizin türk qardaşlarımıza köməyi xalqlarımızı bundan sonra da bir-birinə daha da yaxınlaşdıracaq. Biz bundan sonra da sevincli günlərimizdə də, kədərli günlərimizdə də həmişə bir yerdə olacağıq. Çünki biz bir yerdə olanda daha güclü və qüdrətli oluruq.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV,**
**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(Əvvəli 6-cı səhifədə)

- Şamaxı xanlığı (1748-1820) Bakı, Quba, Şəki Qarabağ xanlıqları və Kür çayı ilə həmsərhəd idi. Əsası Hacı Məhəmmədəli bəy, Məhəmməd Səid bəy və Ağası qardaşları tərəfindən qoyulmuşdu, paytaxtı bir müddət Ağsu (Yeni Şamaxı), sonra Şamaxı şəhəri olmuşdu. Xanlıq 1805-ci ildə çar Rusiyasının əsarətinə düşmüş, 1820-ci ildə çar fərmanına əsasən ləğv edilmişdi. Şamaxı xanlığı həm də Şirvan xanlığı kimi tanınırdı.

Azərbaycan ərazisində xanlıqlarla yanaşı, onların bir neçəsinin tərkibində sultanlıqlar və məlikliklər də mövcud olmuşdu. Sultanlıq sultanın başçılıq etdiyi monarxiya dövləti idi. Məliklik məliklər tərəfindən idarə olunan kiçik feodal hakimliyindən ibarət idi. Məliklik "xəmsə" (beşlik) də adlanırdı. Səfəvilər dövlətinin inzibati-ərazi vahidlərindən biri məliklik olmuş və 5 feodal hakimliyini (Qarabağ xanlığının tərkibində) - Vərəndə, Dizaq, Xaçın, Gülüstan və Çilabert hakimliklərini birləşdirmişdi. Azərbaycanda Qazax, Şəmşəddil, Ərəş, Ilisu, Qəbələ sultanlıqlarının və Car-Balakən camaatlığının adına təsadüf edilir.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində, özünün dövlətçilik ənənələrini qoruyub saxlaya bilmiş, hətta Şərq və Qərb dünyasında özünəməxsusluğu ilə seçilən qüdrətli imperiyalar yaratmışdı. Bu, həm Manna, Atropatena, Albaniya kimi qədim, həm də Şirvanşahlar, İldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi qüdrətli orta əsr dövlətlərinin, həmçinin ərazi cəhətdən kiçik olsa da, xanlıqlar kimi siyasi müstəqilliyə malik son orta əsr dövlətlərimizin timsalında özünü göstərmişdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin milli dövlətçilik, ideyaları, XX yüzilliyin sonu Azərbaycanı daha qüdrətli bir dövlətə çevirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanı dövlətçiliyə sədaqətlə daha da qüdrətləndirdi. Bu qüdrətin nəticəsində rəşadətli Azərbaycan Ordusu Vətən müharibəsində böyük Zəfər qazandı. Bu zəfər gələcək nəsillərimizin fikir və düşüncələrinə hakim kəsiləcəkdir. Bu gün hər birimiz əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik amallarına sədaqətlə davam etdirəcəkdir, Azərbaycan tarixinin yeni şanlı səhifələri yazılacaqdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusu Suriyada 3 terrorçunu zərərsizləşdirib



Türkiyə ordusu PKK-YPG terror təşkilatının Suriya qanadının 3 silahlısını zərərsizləşdirib.

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata əsasən, PKK-YPG terrorçuları Suriyanın şimalında "Sülh çeşməsi" antiterror əməliyyatı bölgəsində zərərsizləşdirilib.

"Qəhrəman Türkiyə Silahlı Qüvvələrimiz əzm və qətiyyətlə terror yuvalarını məhv etməyə davam edir. "Sülh çeşməsi" antiterror əməliyyatı bölgəsində üç PKK terrorçusu zərərsizləşdirilib", - deyə məlumatda qeyd olunub.

## ABŞ Dövlət Departamenti Tayvana F-16-lar üçün raket satışına razılıq verib



ABŞ Dövlət Departamenti Tayvana F-16 qırıcılarında istifadə olunan raketlərin mümkün satışına icazə verib. Bu barədə ABŞ Müdafiə Nazirliyinin hökumətlərarası müqavilələr əsasında xarici ölkələrə silah və hərbi texnikanın tədarükünü həyata keçirən təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə agentliyi məlumat yayıb.

ABŞ administrasiyası bu qərarı barədə Konqresi məlumatlandırıb. Qanunverici orqan potensial sövdələşməyə 30 gün müddətində münasibət bildirməlidir.

Bir müddət öncə Tayvan rəsmiləri radar əleyhinə 100 ədəd HARM və hava-hava tipli 200 ədəd AMRAAM (Advanced Medium-Range Air-to-Air Missile) raketləri, həmçinin digər sistemlər və ehtiyat hissələri əldə etmək üçün Vaşinqtona sorğu göndərmişdi. Baş tutacağı təqdirdə 619 milyon dollarlıq sövdələşmə adanın hava hücumundan müdafiə qabiliyyətini xeyli artıracaq.

Tayvan 1949-cu ildən bəri özünün xüsusi administrasiyası tərəfindən idarə olunur. Rəsmi Pekin isə adanı Çinin bir əyaləti hesab edir. 2022-ci ilin avqustunda ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Taybeyə səfərindən sonra regionda vəziyyət ciddi şəkildə gərginləşib və Çin ordusu Tayvan ətrafında miqyaslı manevrlərə başlayıb.

## Britaniya İran silahlarının qaçaqmalçılığı ilə məşğul olan gəmini saxlayıb



Böyük Britaniyanın Hərbi Dəniz Qüvvələri fevral ayında Oman körfəzinin beynəlxalq sularında İran silahlarının qaçaqmalçılığı ilə məşğul olan gəmini saxlayıb.

Bu barədə Böyük Britaniyanın müdafiə naziri Ben Uolles deyib.

Gecə saatlarında yüksək sürətlə hərəkət edən gəmi ABŞ-ın kəşfiyyat təyyarəsi və PUA-sı tərəfindən aşkarlanıb. Qaçaqmalçılar İranın ərazi sularında gizlənməyə çalışsa da, Britaniyanın hərbi gəmiləri tərəfindən saxlanılıb.

Aşkarlanan silahların arasında tank əleyhinə idarəolunan raketlər və orta mənzilli ballistik raketlərin istehsalında istifadə edilən detallar olduğu bildirilir.

Ben Uollesin sözlərinə görə, "Lancaster" gəmisi tərəfindən həyata keçirilən bu əməliyyat və Britaniya Hərbi Dəniz Qüvvələrinin Oman körfəzində daimi mövcudluğu beynəlxalq hüququn təminatına zəmanət verir və bütün dünyada sülhə və təhlükəsizliyə təhdidlərin qarşısını almağa kömək edir.

Böyük Britaniyanın hərbi gəmiləri ötən il də İran silahlarının qaçaqmalçılığı ilə məşğul olan iki gəmini saxlamışdı.

**AZƏRTAC-ın materialları əsasında**

# Tank bölmələrinin döyüş hazırlığı yoxlanılıb





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, cari ilin hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunun tank bölmələrində döyüş hazırlığının yoxlanılması üzrə tədbirlər keçirilib.

Ümumqoşun poliqonunda keçirilən tədbirlərdə döyüş maşınlarının idarə olunması, eləcə də şərti düşmən hədəflərinin məhv edilməsi üzrə yoxlama və nəzarət çalışmaları uğurla icra edilib.

Döyüş hazırlığının yüksək səviyyədə saxlanması və heyət üzvlərinin fərdi bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə keçirilən tədbirlərdə hərbi qulluqçular qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

*Nümunəvi xidmət*

# "Vətən evim, xidmət yoldaşlarım ailəm oldu"

"Övladım anasız böyüyər, lakin Vətənsiz böyüyə bilməz" bu sözləri türk qadınının qəhrəmanlıq simvoluna çevrilən Nənə Xatun demişdi. Osmanlı tarixinin önəmli savaşlarından olan, "93 Harbi" adlandırılan 1877-1878-ci illər Osmanlı-Rus müharibəsində beşikdəki körpəsini evdə qoyaraq cəbhəyə gedən Nənə Xatunun dillərdən düşməyən cəsarəti, fədakarlığı nəsildən-nəslə ötürülüb. Müharibə zamanı 22 yaşında olan gənc qadının göstərdiyi bu böyük qəhrəmanlıq hər türkün könlündə yaşayır. Vətənin anaya bərabər tutulmağı, müqəddəsliyi, tarix boyu müxtəlif xalqların, dövlətlərin Vətən uğrunda apardığı mübarizələrdə təsdiqlənib. Vətən anamız, qibləgahımızdır. Vətən qoynunda böyüdüyümüz ana qucağıdır.

Əsgər Əli Novruzov da belə düşünür. O, ata qayğısı, ana nəvazişi görməyib. Hər kəsə ana olan Vətən, Əliyə həm ana, həm də ata olub. "Dağ yeri - duman yeri, yurd yeri - güman yeri" atalar sözündə deyildiyi kimi, Vətən Əlinin tək güman yeri, sığınacağı olub. O, beş yaşından 3 nömrəli uşaq evində dövlət qayğısı ilə böyüyüb, təhsil alıb, şəxsiyyət kimi formalaşıb. İndi əsgərdi. Kimsəsizkən ona qucaq açan Vətənini qoruyur. Əli Vətənə olan övladlıq borcunu layiqincə yerinə yetirir, torpaqlarımızın müdafiəsindədir, işğaldan azad olunan ərazilərdə dislokasiya olunan bölmədə xidmət edir. Fevralın 24-ü onun doğum günü idi. Həmin günü hərbi hissədə qeyd edən Əliyə müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından qiymətli hədiyyə təqdim olunub.



Doğum günü münasibətilə məzuniyyətə buraxılan Əli Novruzovla görüşmək, onu daha yaxından tanımaq və düşüncələrini öyrənmək üçün Xətai rayonunda yerləşən uşaq evinə getdim. Yaşıl ağaclarla əhatə olunan geniş həyət istirahət parklarından seçilmir. Burada uşaqların asudə vaxtlarını səmərəli keçirməsi üçün nəzərdə tutulan futbol, voleybol meydançaları da var. Direktor Məhbubə Hüseynovaya gəlişimin məqsədini bildirdim. Azərbaycan Ordusunun nümunəvi əsgərlərindən olan Əli haqqında Məhbubə xanım ürəkaçan sözlər dedi. Onun sakit təbiətli, mehriban, vətənpərvər oğlan olduğunu bildirdi. Az sonra bir dostu ilə Əli də gəldi. Dostu Maksim Palaqniç də əsgərdi. Komando hərbi hissələrindən birində xidmət edir. O da məzuniyyətə gəlib. Onların möhkəm dost olduğunu öyrəndim. Hər ikisi uşaq evinə eyni yaşda gəlib. Birlikdə böyüyüblər. Qan qardaşı olmasalar da, mənəvi qardaş olublar. Əli hərbi xidmətindən, silahdaşlarından, mükafatlandırılanda keçirdiyi hisslərdən söz açdı. "Əsgər olmağın mənim üçün dəyəri daha çoxdu. Çünki hərbi xidmətdə ikinci ailə qazanmışam. Uşaq evinin kollektivi mənim ailəm idi. Əsgər yoldaşlarım və komandirlərim də ikinci ailəm oldu. Hərbi xidmət hər birimizi bacarıqlı əsgərlər, müstəqil həyata hazırlıqlı şəxslər kimi formalaşdırır. Uşaq evində aldığım təlim-tərbiyə hərbi xidmətdə daha da möhkəmlənib, vətənpərvərlik hissim, Vətən sevgim daha da artırıb. Silahdaşlarımla qeyd etdiyim doğum günümü heç zaman unutmayacam. Həmin günü işğaldan azad olunmuş ərazidə qeyd etməyim, Müdafiə Nazirliyinin nümayəndələrinin bizimlə görüşə gəlməsi, müdafiə naziri adından mənə qol saatı hədiyyə edilməsi həmin günü unudulmaz etdi. O saatı ən dəyərli hədiyyəm kimi hər zaman saxlayacam. Həmin günün sevincini sözlərlə ifadə edə bilmirəm. O anlarda Vətənimlə, xalqımızla, ordumuzla bir daha qürur duydum", - əsgər Ə.Novruzov dedi.

Əli ilk dəfə idi ki, ətrafında bu qədər insanla doğum günü qeyd etdiyini bildirdi, hərbi xidmətdə böyük ailə qazandığını vurğulayaraq dedi:

- Həmin gün özümü valideynlərimin, qardaşlarımın, qohumlarımın ətrafında hiss edirdim. Daha kimsəsiz sözünü qəbul etmirəm. Çünki mənim kimi minlərlə kimsəsizə qucaq açan, ana olan Vətənimiz, bizi qayğıyla əhatə edib böyüdən, ata olan dövlətimiz, həmçinin silahdaşlarım və komandirlərim kimi doğmalarım, möhkəm dostlarım var. Bir sözlə Vətən evim, xidmət yoldaşlarım ailəm oldu.

Əli çox düzgün vurğuladı. İnsan anasız da, atasız da böyüyə bilər, lakin Vətənsiz, yurdsuz böyüyə bilməz. Hər zaman Vətən, millət sevgisindən ilham alan şair, dramaturq Abbas Səhhətin "Vətən" şeirinin misralarında deyildiyi kimi:

Məni xələq eyləmiş
əvvəlcə Xuda,
Sonra vermiş Vətənim
nəşvü-nüma,
Anadır hər kişiyə öz Vətəni,
Bəsləyib sinəsi üstündə onu.

Anamız bildiyimiz, ən ali sevgi ilə bağlandığımız Vətənimiz Əlini də öz qoynunda böyüdüb. İndi Əli anasını - Vətənini göz bəbəyi kimi qoruyur. Övladlıq borcunu layiqincə yerinə yetirir. Bunu isə böyük sevgiylə, istəklə, qürurla edir.

**Baş leytenant
Mahmud MÖHBALIYEV
"Azərbaycan Ordusu"**

# İdman

## Karateçilərimiz "Karate1 Youth League" turnirində daha iki medal qazanıb



Karateçilərimiz Birləşmiş Ərəb Əmirliklərinin Fujeira şəhərində "Karate1 Youth League" turnirinin sonuncu günü daha iki medal qazanıb.

14 yaşadək uşaqlar arasında Əfqan Tarverdi (-45 kq) qızıl medala, Zeynəb Nəbiyeva isə (-52 kq) gümüş medala sahib olub.

Dörd gün davam edən nüfuzlu yarışın əvvəlki günləri Amin Yadigarlı (-55 kq, 16-17 yaşlı gənclər) birinci yeri, Nicat Kərimli (-75 kq, 21 yaşadək gənclər) və Rumil Cəfərli (-76 kq, 16-17 yaşlı gənclər) ikinci yeri, Raul Səfərəliyev (-63 kq, 14-15 yaşlı yeniyetmələr) isə üçüncü yeri tutub. Klub yetirmələrindən "Qara Qaplan"ın idmançıları iki qızıl, bir gümüş və bürünc, "Arpaçay" bir qızıl, Sumqayıt idmançısı bir bürünc medala sahib olub.

## Badmintonçularımız "Uganda International Challenge 2023" turnirində ikinci olublar



Badmintonçularımız Uqandanın paytaxtı Kampala şəhərində keçirilən "Uganda International Challenge 2023" turnirində gümüş medal qazanıblar.

Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni tandemi kişi badmintonçuların qoşa kateqoriya üzrə yarışında İsveçrə, Maldiv adaları, Norveç və Fransanı təmsil edən rəqiblərinə qalib gələrək finala yüksəlib.

Təmsilçilərimiz həlledici görüşdə Tailand badmintonçularına uduzaraq turniri ikinci pillədə başa vurublar.

## FIDE reytinqi: Şahmatçımız Teymur Rəcəbov ilk onluqda

Beynəlxalq Şahmat Federasiyası (FIDE) yeni reytinq siyahısını açıqlayıb.

FIDE-nin rəsmi saytında yerləşdirilən reytinqdə Azərbaycan şahmatçısı Teymur Rəcəbov yenidən ilk onluğa qayıdıb. Hesabında 2747 xalı olan 36 yaşlı qrosmeyster 10-cu pillədə yer alıb. Milli komandanın digər qrosmeysteri Şəhriyar Məmmədyarov 2738 xalla 15-ci pillədə qərarlaşıb.

Şahmatçılarımızdan Qədir Hüseynov (2661) 83-cü, Rauf Məmmədov (2646) isə 100-cü yerdədir.

Siyahıya əvvəlki kimi norveçli dünya çempionu Maqnus Karlsen (2852) başçılıq edir. Rusiyalı Yan Nepomnyaşi (2795) ikinci, çinli Liren Dinq (2788) üçüncüdür.

Qadın şahmatçılardan ibarət Azərbaycan yığmasının üzvlərindən Günay Məmmədzadə (2472) 22-ci, Ülviyyə Fətəliyeva (2427) 42-ci, Gövhər Beydullayeva (2388) 61-ci, Xanım Balacayeva (2372) 70-ci, Gülnar Məmmədova (2358) 88-ci pillədədirlər.

Qadınların reytinqinə çinli Xou Yifan (2628) başçılıq edir.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Həsənov Zaur Cəmil oğluna məxsus MN № 0040341 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş leytenant Rzayev Tofiq Adil oğluna məxsus MN № 0056964 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rüstəmov Orxan Tofiq oğluna məxsus AD № 0009106 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 143
Nüsxə 4725